AZƏRBAYCAN RESPUBLİKASI
DAXİLİ İŞLƏR NAZİRLİYİ
POLİS AKADEMİYASI

# AZƏRBAYCAN TARİXİ

## FƏNN PROQRAMI

**İxtisasın şifri və adı: 050212 - Hüquqşünaslıq**

**Əyani təhsil**
**(bakalavr hazırlığı)**

**BAKI- 2018**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**DAXİLİ İŞLƏR NAZİRLİYİ**
**POLİS AKADEMİYASI**

# AZƏRBAYCAN TARİXİ

## FƏNN PROQRAMI

**İxtisasın şifri və adı: 050212 – Hüquqşünaslıq**

**Əyani təhsil**
**(bakalavr hazırlığı)**

***Fənn proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyinin 41 saylı 22.01.2014-cü il tarixli əmri ilə təsdiq edilmiş, əlavə və dəyişikliklərlə yenidən nəşr olunmuşdur.***
***(Polis Akademiyasının Elmi Şurasının 2 saylı, 21.12.2017-ci il tarixli iclası )***

**B A K I 2018**

| | | |
|---|---|---|
| **Tərtib etdilər:** | İctimai elmlər kafedrasının rəisi, polis kapitanı | **R.M.Məcnunov** |
| | İctimai elmlər kafedrasının baş müəllimi, polis kapitanı | **R.Y.Qasımov** |
| **Elmi redaktor:** | DİN-in Polis Akademiyasının rəisi, polis general-mayoru, h.ü.f.d.,dosent | **N.T.Əliyev** |
| **Rəyçilər:** | DİN-in Polis Akademiyasının "Dövlət və hüquq nəzəriyyəsi" kafedrasının rəisi, polis polkovniki, əməkdar müəllim, dosen | **C. Süleymanov** |
| | AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsinin baş elmi işçisi, t.ü.f.d. | **A. Balayev** |
| | AMEA-nın A.A. Bakıxanov adınaTarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinin elmi işçisi, t.ü.f.d. | **D. Əzimli** |
| | AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Xalq Cümhuriyyəti" şöbəsinin baş elmi işçisi, t.ü.f.d | **K. İsmayılov** |

# GİRİŞ

Gənc nəsildə milli şüurun formalaşdırılması, onların hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsi sahəsində "Azərbaycan tarixi" fənninin müstəsna rolu vardır.

Tarixi inkişafın müxtəlif pillələrində xalqın keçmişi, dili, məişəti, təfəkkürü, tarixi coğrafiyasının, iqtisadi, mədəni və siyasi inkişafının öyrən "Azərbaycan tarixi" fənni göstərilən məsələlərlə bağlı konkret elmi nəticələr çıxarmaqla müvafiq elm sahələrinin inkişafına yardım göstərir. Görkəmli Azərbaycan tarixçisi A. Bakıxanov tarix elmi haqqında yazırdı: "Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilatı və təriflərlərlə xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə bilən əhvalatı keçmişin libasında insanların ibrət nəzərinə çatdırır".

Hər bir elmin insan cəmiyyətinin maddi və mənəvi inkişafında əhəmiyyəti olduğu kimi, "Azərbaycan tarixi" fənninin də öyrənilməsini bir sıra mühüm amillər zəruri edir:

- Azərbaycan tarixi kursunun ən əsas əhəmiyyəti ondan ibarətdir ki, xalqın yaddaşının möhkəmlənməsinə kömək edir, tarixi keçmişimiz barədə təsəvvür yaradır.
- Azərbaycan ərazisində tarixən mövcud olmuş etno-mədəni durumun aşkar edilməsinə imkan yaradır, başqa sözlə, xalqın etnik və dil köklərini müəyyən edir.
- Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin inkişaf tarixini ardıcıl şəkildə nəzərdən keçirərək dövlətçilik tariximiz, onun kökləri və inkişaf meylləri haqqında təsəvvür yaradır.

- Azərbaycan xalqının əsrlərlə apardığı azadlıq mübarizəsi, xalqın yetirdiyi qəhrəmanlar, sərkərdə və dövlət xadimlərinin həyatlarının öyrənilməsi gənc nəsildə vətənpərvərlik hisləri formalaşdırır.

Hər bir gənc, ixtisaslı mütəxəssis olmaqla yanaşı, eyni zamanda öz vətəninin tarixini də dərindən bilməlidir. Öz vətəninin tarixini bilməyən gənc ölkəsini lazımınca sevə bilməz.

“Azərbaycan tarixi” fənni kursantların gələcəkdə yüksək mənəvi əxlaqi keyfiyyətlərə malik vətənpərvər bir şəxsiyyət və zabit kimi yetişdirilməsində misilsiz rol oynayır. Qeyd etdiyimiz yüksək mənəvi dəyərləri özündə cəmləşdirən bu gününün kursantı – gələcəyin polis zabiti cəmiyyətdə ictimai təhlükəsizliyin, dövlət maraqlarının və insan hüquqlarının qorunmasına öz töhfəsini vermiş olacaqdır.

Tədrisi 75 saat həcmində nəzərdə tutulan “Azərbaycan tarixi” fənni üzrə fənn proqramı 16 mövzudan ibarətdir. Hər bir mövzuya seminar məşğələləri üçün müzakirə olunacaq problemlər, o cümlədən zəruri ədəbiyyat siyahısı da əlavə edilmişdir.

# TEMATİK PLAN

| | Mövzuların adı | Mövzuya ayrılış vaxt | Mühazirə | Seminar | Kollokvium |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | 5 | **6** |
| **1** | Azərbaycan ərazisində ibtidai icma quruluşu, tayfa ittifaqları və erkən dövlət qurumları | **2** | **2** | **-** | |
| **2** | Azərbaycan ərazisində qədim dövlətlər. | **4** | **2** | **2** | |
| **3** | Azərbaycan III-VII əsrlərdə. Feodal münasibətlərin yaranması. | **2** | **2** | **-** | |
| **4** | Azərbaycan Xilafətin hakimiyyəti dövründə | **4** | **2** | **2** | |
| **5** | IX-XII əsr Azərbaycan feodal dövlətləri. | **6** | **4** | **2** | |
| **6** | Kollokvium | | | | **2** |
| **7** | Azərbaycanda monqol əsarəti | **2** | **2** | **-** | |
| **8** | Azərbaycan XIV əsrin sonu – XV əsrdə | **4** | **2** | **2** | |
| **9** | Səfəvilər dövləti | **6** | **4** | **2** | |
| **10** | Azərbaycan XVIII əsrdə | **6** | **4** | **2** | |
| **11** | Azərbaycan XIX əsrin I yarısında. Azərbaycanın bölüşdürülməsi | **6** | **4** | **2** | |
| **12** | Kollokvium | | | | **1** |
| **13** | Azərbaycanda kapitalist münasibətlərinin | **2** | **2** | **-** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | meydana gəlməsi | | | | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** |
| **14** | XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatı | **6** | **4** | **2** | |
| **15** | Müstəqillik ərəfəsində Azərbaycanda siyasi vəziyyət | **4** | **2** | **2** | |
| **16** | Azərbaycan Xalq Cümhuriyyəti | **6** | **4** | **2** | |
| **17** | Azərbaycan XX əsrin 20-90-cı illərində | **6** | **4** | **2** | |
| **18** | Kollokvium | | | | 2 |
| **19** | Müstəqil Azərbaycan Respublikası | **5** | **4** | **2** | |
| | **CƏMİ:** | **75** | **46** | **24** | **5** |

- **"Azərbaycan tarixi" fənni üzrə Polis Akademiyasının ümumi kitabxanasında mövcud olan dərsliklər və dərs vəsaitləri:**


1. Azərbaycan tarixi. Dərslik.(S. Əliyarlının red. ilə). Bakı, 2009
2. Azərbaycan tarixi. Dərslik. Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə. I cild. Bakı,1994
3. Azərbaycan tarixi, 7 cilddə. Bakı, 2007. I-VII cildlər. (təkrar nəşr)
4. Azərbaycan tarixi. Mühazirələr toplusu (dərs vəsaiti). Tərtib edənlər: T.Əliyev, R.Qasımov, R.Məcnunov. Bakı, 2014
5. İ.Məmmədov, Ç.Məmmədov. Azərbaycan tarixi (XIX əsr-XXI əsrin əvvəlləri). Mühazirələr kursu. Bakı, 2010

## Mövzu 1. Azərbaycan ərazisində ibtidai icma quruluşu, tayfa ittifaqları və erkən dövlət qurumları

*Vaxt –2 saat*
*Mühazirə - 2 saat*

### Mövzunun qısa məzmunu:

Tarix elmi haqqında anlayış. "Azərbaycan tarixi" kursunun predmeti və vəzifələri. Tarix elminin metodologiyası, tədqiqat metodları. "Azərbaycan tarixi" kursunun əsas problemləri və bölmələri.

Azərbaycanın təbii-coğrafi şəraiti. "Azərbaycan tarixi" anlayışına daxil olan coğrafi məkan. "Azərbaycan" adının etimologiyası. Azərbaycan tarixinə dair mənbələr.

Azərbaycan tarixinin öyrənilməsinin zəruriliyi və əhəmiyyəti.

İbtidai icma quruluşunun səciyyəvi xüsusiyyətləri və mərhələləri. Azərbaycan ərazisində ilk insan sürüləri. Ulu icma. Qədim daş dövrünün mərhələləri və abidələri. Azıxantrop ("Azıx adamı"). Quruçay mədəniyyəti. Homo sapiyens (ağıllı insan). Qəbilə icmasının meydana gəlməsi. Anaxaqanlığı (matriarxat).

Mezolit dövrü. İstehsal təsərrüfatına keçidin əsasının qoyulması. "Neolit inqilabı". İstehsal təsərrüfatının formalaşması. Eneolit dövrü. İlk metalla tanışlıq. "Toxa əkinçiliyi".

Erkən tarixi dövrlərdə, ibtidai insan sürüsü mərhələsində Azərbaycan sakinlərinin mənəvi aləmi. İnsanlar arasında birgəyaşayış qaydalarının yaranması və inkişafı. İlk dini

təsəvvürlər. Axirət dünyasına inam. Səma cisimlərinə inam. Dəfn adətləri. İbtidai incəsənət.

Tunc dövrü. Ataxaqanlığına (patriarxat) keçid. Birinci ictimai əmək bölgüsü. Əkinçi və maldar tayfalar. İkinci ictimai əmək bölgüsü. Sənətkarlığın inkişafı. Erkən şəhər mərkəzlərinin yaranması. Yeni təsərrüfat sahələrinin yaranması və inkişafı. Sosial və əmlak bərabərsizliyinin meydana gəlməsi və dərinləşməsi. İri tayfa ittifaqlarının yaranması. Dəmir dövrü və təsərrüfatın inkişafı. İbtidai icma quruluşunun dağılması.

E.ə. III-II minilliklərdə Azərbaycanın etno-siyasi xəritəsi. Azərbaycan ərazisində ilk tayfa ittifaqları. Erkən dövlət qurumları: Aratta, Kuti və Lullubi. İlk dövlət qurumlarının qədim İkiçayarası ilə qarşılıqlı münasibətləri. İkiçayarasında kuti hökmranlığı və onun xüsusiyyətləri. İlk dövlət qurumlarının süqutundan sonra Azərbaycanda siyasi vəziyyət. Turukki-Assur savaşları. Qədim Azərbaycan tayfalarının Assuriya dövlətinin işğalçılıq siyasətinə qarşı mübarizəsi.

## Mövzu 2. Azərbaycan ərazisində qədim dövlətlər

*Vaxt – 4 saat*
*Mühazirə - 2 saat*
*Seminar – 2 saat*

**Mövzunun qısa məzmunu:**

E.ə. I minilliyin əvvəllərində Cənubi Azərbaycanın siyasi xəritəsi. Urmiya gölü hövzəsində müstəqil siyasət yürüdən vilayətlərin meydana gəlməsi. Zamua vilayəti hökmdarlarının birləşdirmə siyasəti. Manna dövlətinin meydana gəlməsi. İranzu və Mannada mərkəzləşdirmə siyasəti. Assuriya ilə

ittifaq. Urartu təcavüzünə qarşı mübarizə. Ullusunu dövründə Mannanın xarici siyasəti. Mannanın qüdrətli dövlətə çevrilməsi. Manna ərazisində kimmer, iskit və sak tayfalarının məskunlaşması. Mannanın müstəqil xarici siyasət yürütməsi. Ahşeri. Manna dövlətinin süqutu. Manna mədəniyyəti.

Azərbaycan Midiya və Əhəməni dövlətlərinin tərkibində. Makedoniyalı İsgəndərin Şərqə yürüşü və Əhəməni imperiyasının süqutu. İsgəndər imperiyasının süqutu və Azərbaycanda müstəqil dövlətlərin meydana gəlməsi. Atropatena dövlətinin yaranması. Atropatena dövlətinin Parfiya və Roma ilə münasibətləri. Atropatenanın təsərrüfatı, ictimai və dövlət quruluşu.

Qədim Albaniya dövləti. Qədim müəlliflər Albaniya və albanlar haqqında. Albaniyanın ərazisi və sərhədlərinə dair əsassız erməni iddiaları. Albaniyanın əhalisi, ərazisi, inzibati və siyasi quruluşu.

Albaniyanın təsərrüfat həyatı, şəhərlər və ticarət. Qonşu ölkələrlə siyasi əlaqələr. Roma işğalçılarına qarşı mübarizə. Şimal tayfalarının Albaniyaya yürüşləri.

Atropatena və Albaniya mədəniyyəti. Əhalinin dini inancları. Memarlıq. Ellinizm mədəniyyəti və Azərbaycan.

## Mövzu 3. Azərbaycan III-VII əsrlərdə. Feodal münasibətlərin yaranması.

*Vaxt –2 saat*
*Mühazirə - 2 saat*

### Mövzunun qısa məzmunu:

III-V yüzilliklərdə Azərbaycanda məhsuldar qüvvələrin inkişafı. Feodal münasibətlərinin meydana gəlməsi. Feodal istehsal üsulunun əsas xüsusiyyətləri. Azərbaycan və Qərbi Avropa feodalizminin fərqli xüsusiyyətləri. İlkin Alban feodal dövləti. Feodalizmin əsas zümrələri: feodallar və kəndlilər. Albaniyada vergi və mükəlləfiyyətlər.

Azərbaycanın Sasanilər tərəfindən işğalı. Roma (Bizans)-Sasani müharibələri və Azərbaycan. Azərbaycanda Sasani zülmü. Sasanilərin vergi və köçürmə siyasəti. Sasanilərin müdafiə tədbirləri. Sasani zülmünə qarşı mübarizə. II Vaçenin Sasanilər əleyhinə üsyanı və onun nəticələri.

Albaniyada siyasi hakimiyyətin möhkəmləndirilməsi. III Mömin Vaçaqan. Aquen kilsə məclisi və onun qərarları. Albaniyada yerli hökmdar hakimiyyətinin ləğvi.

Azərbaycanda sosial hərəkatlar. Məzdəkilər hərəkatı. Məzdəkilər təliminin mahiyyəti.

Azərbaycanda feodal münasibətlərinin inkişafı və möhkəmlənməsi. Girdiman knyazlığının yaranması və yüksəlişi.

Azərbaycan əhalisinin etnik tərkibi. Azərbaycan türk xalqının yaranması.

III-VII əsrlərdə Azərbaycanın təsərrüfat həyatı. Mədəniyyət.

## Mövzu 4. Azərbaycan Xilafətin hakimiyyəti dövründə

*Vaxt – 4 saat*
*Mühazirə - 2 saat*
*Seminar – 2 saat*

**Mövzunun qısa məzmunu:**

VI-VII əsrlərdə Ərəbistanda ibtidai icma cəmiyyətin dağılması və feodal münasibətlərinin formalaşması. İslam dininin yaranması. Ərəb dövlətinin meydana çıxması ilə ərəblərin işğallara başlaması. Ərəb işğalı ərəfəsində Azərbaycanda ictimai-iqtisadi vəziyyət. VII əsrin birinci yarısında Azərbaycanın cənub torpaqlarının işğalı.

Girdiman knyazlığının daxili və xarici siyasəti. Xilafətin Azərbaycanı işğal etməsi. Alban xristian kilsəsi, xilafətin kilsəyə münasibəti. Azərbaycan uğrunda Ərəb-Xəzər savaşları. Azərbaycanda ərəb işğalının başa çatması. İdarəçilik, torpaq və vergi siyasəti.

İslamın yayılması. Əməvilər və Abbasilər sülalələrinin hakimiyyəti dövründə vergilərin artırılması və ərəb zülmünün güclənməsi. Ərəb işğalçılarına qarşı xalqın mübarizəsi. Beyləqan üsyanı. Xürrəmilər hərəkatı. Cavidanın, daha sonra isə Babəkin başçılığı ilə Azərbaycanda xilafətə qarşı azadlıq mübarizəsi. Azərbaycandakı azadlıq müharibəsinin digər xalqların ərəblərə qarşı mübarizəsinə təsiri. Azadlıq savaşının məğlubiyyətinin səbəbləri, əhəmiyyəti və tarixi yeri. Xürrəmilər hərəkatının ərəb xilafətinin zəifləməsində və parçalanmasında rolu.

Atropatenanın və Albaniyanın Ərəb xilafətinin tərkibinə qatılması ilə ölkənin cənub və şimalı arasında iqtisadi, siyasi və

mədəni əlaqələrin güclənməsi. İslam dininin vahid dinə, dilə və əraziyə malik Azərbaycan türk xalqının formalaşması prosesində rolu.

VII-IX əsrlərdə Azərbaycanın təsərrüfat həyatı. Mədəniyyət.

## Mövzu 5. IX-XII əsr Azərbaycan feodal dövlətləri

*Vaxt – 6 saat*
*Mühazirə - 4 saat*
*Seminar – 2 saat*

**Mövzunun qısa məzmunu:**

Ərəb xilafətinin zəifləməsi. Azərbaycanda siyasi dirçəliş. Müstəqil feodal dövlətlərin meydana gəlməsi.

Şirvanşahlar dövlətinin meydana gəlməsi. Məzyədilər sülaləsi. Ətraf ərazilərin Şirvana birləşdirilməsi. Şimal sərhədlərinin müdafiəsində Şirvanşahlar dövlətinin rolu. Şirvanşahlar dövlətinin yaranmasının əhəmiyyəti.

Sacilər dövlətinin yaranması. Sacilərin mənşəyi. Azərbaycan torpaqlarının birləşdirilməsi. Yusif ibn Əbu Sac. Sacilər dövlətinin ərazisi. Azərbaycan tarixində Sacilər dövlətinin yeri.

Salarilər dövlətinin yaranması. Salarilər dövlətinin ərazisi. Salarilər dövlətinin süqutunun səbəbləri.

Rəvvadilərin mənşəyi. Rəvvadilər dövlətinin yaranması. Rəvvadilərin ərazisi. Rəvvadilərin hakimiyyəti dövründə Azərbaycanda oğuz türklərinin mövqeyinin güclənməsi.

Şəddadilərin mənşəyi. Dəbil əmirliyi. Gəncənin tutulması və dövlətin yaranması. Fəzl ibn Məhəmməd və onun fəaliyyəti.

Şəddadi-Gürcüstan, Şəddadi-Şirvan və Şəddadi-Rəvvadi münasibətləri. Azərbaycan torpaqlarının yadelli işğalçılardan qorunmasında Şəddadilərin rolu. Şəddadi-səlcuq münasibətləri.

Səlcuq türkləri və Azərbaycan. Səlcuqların Azərbaycanı işğal etməsi. Səlcuqların Azərbaycana gəlişlərinin əhəmiyyəti. Azərbaycan xalqının formalaşması prosesinin başa çatması.

Səlcuqlar dövründə feodal torpaq sahibliyinin inkişafı. Yeni torpaq mülkiyyəti və vergilər.

Səlcuq imperiyasının zəifləməsi. Azərbaycan Atabəylər dövlətinin yaranması. Atabəy Şəmsəddin Eldəniz. Gürcülərə qarşı mübarizə. Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti dövründə dövlətin yüksəlişi. “Məmlük dövrü”. Atabəylər dövlətinin süqutu.

XII əsrdə Şirvanşahlar dövlətinin yüksəlişi. Şirvan-Gürcüstan münasibətləri. I Axsitanın hakimiyyəti dövründə Şirvanın daxili və xarici vəziyyəti.

IX-XII əsr Azərbaycan dövlətlərinin idarəçiliyi və ictimai-iqtisadi quruluşu. Kənd təsərrüfatı. Kəndlilərin vəziyyəti. Sənətkarlıq, şəhərlər və ticarət. Avropa və Rusiya ilə ticarət əlaqələri.

IX-XII əsrlərdə mədəniyyətin inkişafı. Azərbaycan mədəniyyətinin “İntibah dövrü”. Memarlıq abidələri. Memar Əcəmi. Ədəbiyyatın inkişafı. Ə.Xaqani, N.Gəncəvi, M.Gəncəvi və başqaları. Kitabi-Dədə Qorqud dastanı. Elmin inkişafı.

## Mövzu 6. Azərbaycanda monqol əsarəti

*Vaxt – 2 saat*
*Mühazirə - 2 saat*

**Mövzunun qısa məzmunu:**

Mərkəzi Asiyada Monqol dövlətinin yaranması, Onon qurultayı, monqolların ilk yürüşləri. Monqol işğalı ərəfəsində Azərbaycanda sosial - iqtisadi və siyasi vəziyyət. Cəbə və Subutayın rəhbərliyi ilə monqolların kəşfiyyat xarakterli birinci yürüşü. Şamaxı, Təbriz və Beyləqanın müdafiəsi. Monqol yürüşü nəticəsində Azərbaycanda siyasi və iqtisadi vəziyyətin gərginləşməsi.

Xarəzmşah Cəlaləddinin Azərbaycana yürüşü. Cəlaləddinin tərəfindən Atabəylər dövlətinə və Marağada Ağsunqurilərin hakimiyyətinə son qoyulması. Xarəzmşah Cəlaləddinin talançı vergi siyasəti və xalqın narazılığı. Usta Bəndərin rəhbərliyi ilə Gəncə üsyanı.

Monqolların Azərbaycana ikinci yürüşü və onun xarakteri. Azərbaycanın işğalının başa çatdırılması və Ali Monqol xaqanlığının tərkibinə qatılması. Ali Monqol xaqanlığının hakimiyyəti dövründə Azərbaycanda iqtisadi-siyasi durum. İqtisadi və mədəni tənəzzülü.

Monqolların Azərbaycana üçüncü yürüşünün baş verməsi. Beşinci monqol ulusunun-Hülakülər dövlətinin yaranması. Azərbaycanın Hülakülər imperiyasının mərkəzi kimi.

Monqolların torpaq və vergi siyasəti. Hülakülərin zəifləməsi və daxili çəkişmələr. Çobanilər və Cəlairilərin hakimiyyət uğrunda mübarizəsi. Hülakü-Qızıl Orda münasibətləri.

Monqollara qarşı xalq üsyanları. Qazan xanın islahatları. Hülakülər dövlətinin süqutu.

XIII - XIV əsrlərdə Azərbaycanda iqtisadi həyat. Şəhərlər, sənətkarlıq və ticarət. Mədəniyyət.

## Mövzu 7. Azərbaycan XIV əsrin sonu – XV əsrdə

*Vaxt – 4 saat*
*Mühazirə - 2 saat*
*Seminar – 2 saat*

### Mövzunun qısa məzmunu:

XIV əsrin sonu Azərbaycanda siyasi vəziyyət. Cəlairilərin Azərbaycanı işğalı. Azərbaycan Cəlairilər dövlətinin tərkibində.

Əmir Teymurun və Toxtamış xanın Azərbaycana yürüşləri. I İbrahimin Teymurla yaxınlaşması. Azərbaycanın Əmir Teymur tərəfindən işğalı. Əlincə qalasının müdafiəsi. Azərbaycan uğrunda Teymurilər, Cəlairilər və Qaraqoyunlular arasında mübarizənin güclənməsi. Ölkə daxilində iri feodal qruplaşmalar arasında çəkişmələrin artması.

Şirvanşahlar dövləti XIV əsrin II yarısı - XV əsrdə. Şirvanşahlar dövlətində hakimiyyət dəyişikliyi, Dərbəndilər sülaləsinin hakimiyyətə gəlməsi. Şirvanşah I İbrahimin daxili və xarici siyasəti. Azərbaycanın birləşdirilməsi uğrunda mübarizə.

Baharlı sülaləsi tərəfindən mərkəzi Van şəhəri olan Qaraqoyunlu tayfa ittifaqının yaradılması. Qaraqoyunluların Teymuri və Cəlairilərlə münasibətləri. Qara Yusif tərəfindən mərkəzi Təbriz şəhəri Qaraqoyunlu dövlətinin əsasının

qoyulması. Qara Yusifin ölümündən sonra Qaraqoyunlu dövlətinin zəifləməsi. Şirvanşahlarla və Ağqoyunlularla münasibətlərin pisləşməsi. Cahanşahın daxili və xarici siyasəti. Ağqoyunlu Uzun Həsən tərəfindən Qaraqoyunlu dövlətinə son qoyulması.

Bayandur sülaləsi tərəfindən siyasi mərkəz Diyarbəkir olmaqla Ağqoyunlu tayfa birliyinin əsasının qoyulması. Ağqoyunlu tayfa ittifaqında daxili çəkişmələr, tayfa birliyinin tənəzzülü. Uzun Həsən tərəfindən Ağqoyunlu tayfa ittifaqının möhkəmləndirilməsi. Ağqoyunluların Qaraqoyunlu, Teymuri və Osmanlılarla mübarizəsi. Uzun Həsən tərəfindən mərkəz Təbriz şəhəri olmaqla Ağqoyunlu dövlətinin yaradılması. Ağqoyunluların Ərdəbil hakimliyi və Şirvanşahlarla münasibətləri.

Ağqoyunlu dövləti və Qərb diplomatiyası. Ağqoyunlu-Osmanlı müharibələri. Ağqoyunlu dövlətində daxili çəkişmələr və onun tənəzzülü.

XV əsrdə Azərbaycanın ictimai - siyasi həyatı, mədəniyyət.

## Mövzu 8. Səfəvilər dövləti

*Vaxt – 6 saat*
*Mühazirə - 4 saat*
*Seminar – 2 saat*

### Mövzunun qısa məzmunu:

Qızılbaşlar hərəkatı və Səfəvilər dövlətinin yaranmasında onun rolu. Ərdəbil hakimliyi. Səfəvi dövlətinin yaradılması uğrunda mübarizə. Səfəvilərin Azərbaycanı birləşdirmək uğrunda mübarizəsi. I Şah İsmayıl. Qızılbaşların Şirvana

yürüşü. Şamaxı və Bakının tutulması. Ağqoyunlularla müharibə. Təbrizin tutulması və Səfəvilər dövlətinin yaranması.

Almaqulağı döyüşü və Ağqoyunlu dövlətinin ikinci qolunun süqutu. I Şah İsmayılın fatehlik siyasəti: Ərəb İraqının, Diyarbəkrin və Xorasanın birləşdirilməsi. I Şah İsmayılın Gürcüstan yürüşləri. Şirvan üzərində nəzarətin gücləndirilməsi.

I Şah İsmayılın xarici siyasəti. Osmanlı dövləti ilə münasibətlərin kəskinləşməsinin səbəbləri. Avropa dövlətləri ilə Osmanlı imperiyasına qarşı ittifaq cəhdi. Avropa dövlətlərinin niyyətləri. Çaldıran döyüşü və Səfəvi-Osmanlı müharibələrinin birinci mərhələsinin başlanması. Səfəvilərin ərazi itkiləri.

I Şah Təhmasibin hakimiyyəti dövründə ölkənin daxili vəziyyəti. Qızılbaş əmirlərinin hakimiyyət uğrunda mübarizəsi. I Şah Təhmasibin hakimiyyəti dövründə Səfəvi-Osmanlı müharibələri. Şirvan və Şəkinin birləşdirilməsi. Vahid, mərkəzləşdirilmiş Azərbaycan dövləti yaratmaq prosesinin başa çatması. Amasya sülhü və Səfəvi-Osmanlı müharibələrinin birinci mərhələsinin başa çatması.

I Şah Təhmasibin ölümündən sonra hakimiyyət uğrunda mübarizə. Səfəvilər dövlətinin zəifləməsi. Səfəvi-Osmanlı müharibələrinin ikinci mərhələsi. I Şah Abbasın hərbi-inzibati islahatları. I Abbasın xarici siyasəti. “Böyük elçilik”. Avropa dövlətləri ilə münasibətlər. Səfəvi-İngiltərə müqaviləsi. Hörmüzün geri qaytarılması.

İstanbul sülhü. Səfəvi-Osmanlı müharibələrinin yeni mərhələsinin başlanması. II İstanbul, Mərənd və Qəsri-Şirin

sülhləri. Səfəvilər dövlətinin ərazi bütövlüyünün bərpa olunması.

Səfəvilər dövləti II Abbasın hakimiyyəti dövründə. Dövlətin beynəlxalq nüfuzunun güclənməsi. Səfəvilər dövlətinin Böyük Moğol imperiyası ilə münasibətləri. XVII əsrin ortalarında Rusiya-Səfəvi qarşıdurması. Səfəvilər dövlətinin zəifləməsinin səbəbləri.

Səfəvilərin dövlət idarəçiliyi. Ordu. İnzibati idarəçilikdə və orduda Azərbaycan türklərinin rolu.

XVI-XVII əsrlərdə Azərbaycanda sosial-iqtisadi vəziyyət. Torpaq mülkiyyət formaları. Vergi və mükəlləfiyyətlər.

XVI-XVII əsrin birinci yarısında Azərbaycan mədəniyyəti.

## Mövzu 9. Azərbaycan XVIII əsrdə

*Vaxt – 6 saat*
*Mühazirə - 4 saat*
*Seminar – 2 saat*

### Mövzunun qısa məzmunu:

XVIII əsrin əvvəllərində. Səfəvilər dövlətinin tənəzzülünün səbəbləri. Sultan Hüseynin daxili siyasəti. Feodal istismarının güclənməsi. Xalq kütlələrinin vəziyyətinin ağırlaşması. Səfəvilərə qarşı üsyanlar. Hacı Davud. Əfqanların Səfəvilərə qarşı üsyanı. İsfahanın alınması. II Təhmasib.

Azərbaycan I Pyotrun işğal planlarında. Pyotrun "Bəyannaməsi" və onun mahiyyəti. Rus qoşunlarının Xəzərsahili vilayətlərə yürüşü. Xəzərsahili vilayətlərin ruslar tərəfindən işğalı. Xarici dövlətlərin Azərbaycan uğrunda

rəqabəti. 1724-cü il İstanbul müqaviləsi. Azərbaycan torpaqları Osmanlı və Rusiya hakimiyyəti altında.

İşğal edilmiş Azərbaycan torpaqlarının azad edilməsi uğrunda mübarizə. Nadir xan. Osmanlı dövlətinə qarşı mübarizə. Bağdad müqaviləsi. Rus qoşunlarının Xəzərsahili vilayətlərdən çıxarılması. Rəşt və Gəncə müqavilələri.

Muğan qurultayı. Nadirin şah seçilməsi və Səfəvilər dövlətinin süqutu. Azərbaycan Nadir şah imperiyasının tərkibində. Nadir şahın daxili siyasəti. İnzibati, aqrar və vergi siyasəti. Nadir şahın dini islahat cəhdləri. Dövlət idarəetmə sistemində dəyişikliklər. Azərbaycanda Nadir şaha qarşı üsyanlar.

Nadir şah imperiyasının süqutu və Azərbaycan xanlıqlarının yaranması. Azərbaycanın xanlıqlara bölünməsinin səbəbləri.

Cənub xanlıqları. Fətəli xan Əfşar, Məhəmmədhəsən xan Qacar və Kərim xan Zənd arasında mərkəzi hakimiyyət uğrunda mübarizə. Urmiya, Təbriz, Xoy, Qaradağ və Ərdəbil xanlıqları. Ağa Məhəmməd şah Qacarın hakimiyyət uğrunda mübarizəsi.

Şimal xanlıqları. Şəki xanlığı. Hacı Çələbi və onun birləşdirmə siyasəti.

Qarabağ xanlığının yaranması və güclənməsi. İbrahim Xəlil xanın dövründə xanlığın daxili və xarici siyasəti. Separatçılığa qarşı mübarizə.

Quba xanlığı. Fətəli xanın birləşdirmə siyasəti. Şimal-şərqi Azərbaycan dövləti. Birləşdirmə siyasətinin uğursuzluğunun səbəbləri.

XVIII əsrin sonlarında Azərbaycanda siyasi vəziyyət. Azərbaycan uğrunda dövlətlərarası rəqabət. 1796-cı ildə rus

qoşunlarının Azərbaycana işğalçılıq yürüşü. Ağa Məhəmməd şah Qacarın Azərbaycan yürüşləri.

Xanlıqların idarəetmə sistemi. XVIII əsrdə Azərbaycanın təsərrüfat həyatı. Aqrar münasibətlər.

XVIII əsr Azərbaycan mədəniyyəti.

## Mövzu 10. Azərbaycan XIX əsrin birinci yarısında. Azərbaycanın bölüşdürülməsi

*Vaxt – 4 saat*
*Mühazirə - 2 saat*
*Seminar – 2 saat*

### Mövzunun qısa məzmunu:

XIX əsrin əvvəllərində Azərbaycan xanlıqlarının ictimai-iqtisadi vəziyyəti. Rusiyanın Qafqaza dair işğalçılıq planları. İngiltərə və Fransanın mövqeyi. Şərqi Gürcüstanın Rusiya tərəfindən işğalı. Azərbaycan torpaqlarının işğalının başlanması. Car-Balakənin işğalı. Andlı öhdəlik. Gəncənin qəhrəmancasına müdafiəsi. Cavad xan.

Şimali Azərbaycan uğrunda birinci rus-İran müharibəsinin başlanması. Qarabağ və Şəki xanlıqlarının işğalı. Kürəkçay müqavilələri. Şamaxı xanlığının zəbt edilməsi. Dərbənd, Bakı və Quba xanlıqlarının işğalı.

Üçmədzin, Qəmərli və Qarababa döyüşləri. Əsgəran danışıqları. Müharibənin gedişində dönüş. Aslandüz döyüşü. Gülüstan sülh müqaviləsi. Azərbaycan torpaqlarının iki yerə bölünməsi. Çarizmin Şimali Azərbaycanda milli dövlətçilik ənənələrini məhv etmək siyasəti. Komendant üsul-idarəsinin tətbiqi və onun mahiyyəti.

İkinci-Rusiya İran müharibəsinin başlanması. Rusiya əleyhinə qarşı Şimali Azərbaycanda üsyanlar. Şəmkir və Gəncə döyüşləri. İrəvanın qəhrəmancasına müdafiəsi. Həsən xan. İrəvanın işğalı və rus qoşunlarının Cənubi Azərbaycana daxil olması. Təbrizin müdafiəsi. Rusiya və İran arasında sülh danışıqları. Urmiya və Ərdəbilin tutulması. Rusların Şeyx Səfi kitabxanasını qarət etməsi. Azərbaycan xalqının maddi və mənəvi sərvətlərinin talan edilməsi. Türkmənçay müqaviləsi. Azərbaycanın iki yerə bölüşdürülməsinin başa çatması. Rus-Osmanlı müharibəsi və Ədirnə sülhü.

İran və Osmanlı dövlətindən ermənilərin köçürülərək Azərbaycan ərazisində yerləşdirilməsi. İrəvan və Qarabağda demoqrafik vəziyyətin dəyişməsi.

Çarizmin müstəmləkə zülmünə qarşı üsyanlar və onun səbəbləri. Car-Balakən, Talış, Quba və Şəki üsyanları. Üsyanların məğlub olmasının səbəbləri. XIX əsrin 30-cu illərində baş vermiş üsyanların əhəmiyyəti.

1840-cı il inzibati və məhkəmə islahatları. Ümumrusiya idarəçilik sisteminin tətbiqi. Qafqaz canişinliyinin yaradılması. Yeni inzibati islahatlar. Çarizmin müstəmləkəçilik siyasətinin inzibati islahatlarda əksi.

Ağa və bəylərin torpaqlarının müsadirə edilməsi və onun nəticələri. 1846-cı il 6 dekabr reskripti. 1847-ci il "Kəndli Əsasnamələri".

XIX əsrin birinci yarısında Azərbaycan mədəniyyəti.

## Mövzu 11. Azərbaycanda kapitalist münasibətlərinin meydana gəlməsi

*Vaxt – 2 saat*
*Mühazirə - 2 saat*

**Mövzunun qısa məzmunu:**

Rusiyada 1861-ci il aqrar islahatı. Kəndli islahatının Cənubi Qafqazda həyata keçirilməsi. Azərbaycanda 1870-ci il kəndli islahatı.

XIX əsrin 60-70-ci illərində Azərbaycanda həyata keçirilmiş burjua islahatları və onların çatışmayan cəhətləri. Çarizmin Qafqaz xalqlarına, o cümlədən Azərbaycan xalqına münasibəti və onun səbəbləri. XIX əsrin II yarısında Azərbaycanda kapitalist münasibətlərinin inkişafı.

İslahatdan sonrakı dövrdə Azərbaycanın kənd təsərrüfatında və sənayesindəki dəyişikliklər. XIX əsrin II yarısında Azərbaycanda kənd təsərrüfatı və onun sahələri. Azərbaycan kəndində kapitalist münasibətlərinin inkişafı. 1870-ci il islahatından sonra kəndlilərin sosial və milli zülmə qarşı mübarizəsi. Azərbaycanda qaçaq hərəkatı və çarizmə qarşı digər çıxışlar.

İltizam sisteminin ləğvi. Neft sənayesinin inkişafı. Neft hasilatı, neft emalı və kimyəvi istehsal. Neft sənayesində yerli, rus və xarici kapitalın tətbiqi. Neft sənayesinin formalaşması. İri neft inhisarları. Rusiya hakim dairələrinin azərbaycanlı sahibkarlara münasibəti.

Sənayenin digər sahələri-mis sənayesi, ipəksarıma. Yüngül və yeyinti sənaye sahələri.

Kənd təsərrüfatının inkişafı: taxılçılıq, maldarlıq, bağçılıq, üzümçülük, şərabçılıq, ipəkçilik və texniki bitkilər, pambıqçılıq, tütünçülük.

Mexaniki zavodlar, Tikinti materialları sənayesi, enerji istehsalı. Balıq sənayesi, bu sahədə icarə sisteminin ləğvi. Dəmir yolu çəkilişi. Nəqliyyat əlaqələrinin genişlənməsi. Ticarətin inkişafı.

XIX əsrin ikinci yarısında Azərbaycan mədəniyyəti: maarif, səhiyyə. Məktəblər və mədrəsələr. Elmin inkişafı. İctimai-siyasi fikir. “Əkinçi” qəzeti və onun fəaliyyəti.

XIX əsrin II yarısı Azərbaycanın ziyalı təbəqəsinin və milli burjuaziyanın formalaşması.

XIX əsr Azərbaycan mədəniyyəti. Ədəbiyyatın inkişafı. Azərbaycan milli teatrının meydana gəlməsi. Ədəbi - mədəni əlaqələrin güclənməsi.

## Mövzu 12. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatı

*Vaxt – 6 saat*
*Mühazirə - 4 saat*
*Seminar – 2 saat*

### Mövzunun qısa məzmunu:

***1. Şimali Azərbaycanda demokratik və milli-azadlıq hərəkatı.*** XIX əsrin sonu kapitalist münasibətlərinin inkişafı şəraitində milli ideyanın formalaşması. Milli burjuaziyanın və milli ziyalı təbəqəsinin yaranması və xalqı istiqamətləndirə bilməsi. Azadlıq hərəkatı ərəfəsində ictimai - siyasi vəziyyət.

1905-ci il Rusiya inqilabı və onun Azərbaycanda milli hərəkatın başlanmasına təsiri. Milli - azadlıq hərəkatını doğuran sosial - iqtisadi və siyasi səbəblər. Bu hərəkatın əsas dövrləri, onların başlıca xüsusiyyətləri. "Şərq ərizəsi" və "Ümumxalq haqq istəyi" Rusiya müsəlmanlarının qurultayları. Qurultaylarda tatar və Azərbaycan ziyalılarının mövqeləri. "İttifaqi müslimin" partiyası. Qurultayların Azərbaycan xalqının milli oyanışına və maariflənməsinə təsiri.

Çarizmin "parçala və hökmranlıq et" siyasəti, ermənilərin Azərbaycanlılara qarşı milli soyqırımı siyasəti. "Difai" partiyası və onun yaranmasını şərtləndirən amillər. Hümmət təşkilatının yaranması. Fəhlə hərəkatının genişlənməsi. "Mazut konstitusiyası". Azərbaycan nümayəndələri Rusiyanın dövlət dumalarında. Azərbaycanlı deputatların fəaliyyəti.

"Müsavat" partiyası. Milli - azadlıq hərəkatında onun yeri və rolu.

XX əsrin əvvəllərində mətbuat, elm, incəsənət, ədəbiyyat. Milli - azadlıq hərəkatında demokratik fikir və mətbuatın iştirakı. XX əsrin əvvəllərində milli mətbuatın fəaliyyəti. Xalqın maariflənməsində milli ziyalılarımızın yeri və rolu.

***2. Güney Azərbaycanda milli - demokratik hərəkat.*** Türkmənçay müqaviləsindən sonra Cənubi Azərbaycanın iqtisadi və siyasi vəziyyəti. Cənubi Azərbaycan Qacarlar dövlətinin tərkibində. Cənubi Azərbaycanda əcnəbilərin, dövlət məmurlarının zülmünə və feodal istismarına qarşı narazılığın güclənməsi.

Şaha qarşı çıxışların güclənməsi, Tehranda xalqın bəstə oturması ilə etirazların artması. Xalqın demokratik

dəyişikliklər uğrunda mübarizəsi. Cənubi Azərbaycanda inqilab inqilabi hərəkatın yetişməsi.

1905-1911-ci illər Məşrutə inqilabının sosial - iqtisadi və siyasi zəmini. Cənubi Azərbaycan Məşrutə inqilabı ərəfəsində: ictimai və iqtisadi - siyasi durum. Cənubi Azərbaycan İran inqilabının mərkəzi kimi. Konstitusiya və parlament. Təbrizdə Əncümən yaradılması. Səttar xanın başçılığı ilə demokratik hərəkatın başlanması. Təbrizdə silahlı üsyanın qələbə çalması.

Cənubi Azərbaycana xarici müdaxilə. İngiltərə və Rusiyanın şah hökumətinə köməyi. İrticanın hücuma keçməsi və fədai dəstələrinin tərksilah edilməsi. İnqilabi hərəkatın yatırılması. 1905-1911-ci illər Məşrutə inqilabının əhəmiyyəti.

## Mövzu 13. Müstəqillik ərəfəsində Azərbaycanda siyasi vəziyyət

*Vaxt – 4 saat*
*Mühazirə - 2 saat*
*Seminar – 2 saat*

### Mövzunun qısa məzmunu:

Rusiyada Fevral inqilabının qələbəsi. Çar mütləqiyyətinin devrilməsi. Rusiyada, o cümlədən Azərbaycanda da ikihakimiyyətliliyin yaranması.

Azərbaycanda İctimai Təşkilatların İcraiyyə Komitəsinin yaradılması və fəaliyyəti. Xüsusi Cənubi Qafqaz Komitəsinin yaradılması.

Azərbaycan ziyalılarının inqilaba münasibəti. İnqilab dövründə Azərbaycanda mətbuatın fəaliyyəti.

1917-ci il Qafqaz müsəlmanlarının Bakı qurultayı. Rusiya müsəlmanlarının birləşməsi və Rusiyanı federativ dövlət formasında görmək ideyası. Moskva qurultayı. Moskva qurultayında Rusiyanın gələcək siyasi-inzibati quruluşuna dair fikir ayrılıqları.

1917-ci ilin Oktyabr çevrilişi. Bolşeviklərin hakimiyyətə gəlməsi. Oktyabr çevrilişindən sonra Azərbaycanda siyasi vəziyyət. Azərbaycanda mövcud olan siyasi partiyaların və təşkilatların fəaliyyəti.

Zaqafqaziya (Cənubi Qafqaz) Komissarlığının yaradılması və fəaliyyəti. Osmanlı imperiyası ilə münasibətlər. Ərzincan barışığı.

Qafqaz Seyminin yaradılması. Azərbaycan Cənubi Qafqaz dövlətçiliyi sistemində. Trabzon konfransı. Seymin Osmanlı dövləti ilə müharibəsi. Cənubi Qafqaz Demokratik Federativ Respublikasının yaradılması və süqutu. Cənubi Qafqaz dövlətçiliyində azərbaycanlı deputatların yeri və rolu.

Bolşeviklərin Bakıda hakimiyyəti ələ keçirmələri. Bakı Sovetinin azərbaycanlılara qarşı milli ayrı seçkilik siyasəti. Mart soyqırımı. Bolşeviklərin, "Daşnaksütyun"un və Erməni Milli Şurasının azərbaycanlılara qarşı milli qırğın törətməsi. Bakı, Şamaxı, Quba, Qarabağ ərazisində və Naxçıvanda dinc Azərbaycan əhalisinin fiziki cəhətdən məhv edilməsi.

"Mart qırğınlarının" Azərbaycanda və Cənubi Qafqazda siyasi vəziyyətə təsiri. Cənubi Qafqaz hökumətinin mart hadisələrinə münasibəti.

Mart soyqırımının milli azadlıq hərəkatına təsiri. Milli dövlətin yaradılması zərurətinin meydana çıxması.

Bakı Xalq Komissarları Sovetinin yaradılması, onun fəaliyyəti, mahiyyəti, antiazərbaycan siyasəti və süqutu. Sentrokaspi diktaturasının yaradılması və fəaliyyəti. İngilislərin Bakıya dəvət olunması.

Cənubi Azərbaycanda milli azadlıq hərəkatı. Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə demokratik hərəkatın genişlənməsi. Milli hökumətin yaradılması və fəaliyyəti. Hərəkatın irticaçı qüvvələr tərəfindən yatırılması. Hərəkatın əhəmiyyəti.

## Mövzu 13. Azərbaycan Xalq Cümhuriyyəti

*Vaxt – 6 saat*
*Mühazirə - 4 saat*
*Seminar – 2 saat*

**Mövzunun qısa məzmunu:**

Seymdə millətlərarası ziddiyyətlər. Batum konfransı. Cənubi Qafqaz Respublikasının süqutunda Almaniya və Osmanlı faktoru. "Poti razılaşması". Gürcüstanın müstəqilliyini elan etməsi. Cənubi Qafqaz Respublikasının süqutu.

Azərbaycan Müvəqqəti Milli Şuranın yaradılması. Azərbaycanın istiqlaliyyətinin elan edilməsi. "İstiqlal bəyannaməsi".

Azərbaycan xalq Cümhuriyyətinin ilk addımları. Birinci hökumət kabinetinin təşkili. Azərbaycan Xalq Cümhuriyyətinin Tiflis dövrü.

Milli hökumətin Gəncəyə köçməsi və Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə dövrü. İyun böhranı: səbəbləri və nəticələri. İkinci hökumət kabinetinin təşkili və fəaliyyəti.

Azərbaycan Xalq Cümhuriyyətinin ilk xarici siyasət addımları. Osmanlı imperiyası ilə Batum müqaviləsinin bağlanması. Batum müqavilələrinin mahiyyəti və əhəmiyyəti.

Qafqaz İslam Ordusunun təşkili və fəaliyyəti. Bakı XKS qoşunlarının Gəncə üzərinə yürüşü. Göyçay döyüşü və hərbi təşəbbüsün Qafqaz İslam Ordusunun əlinə keçməsi. Şamaxı əməliyyatı. Bolşevik-daşnak qüvvələrinin məğlubiyyəti.

Bakı XKS-nin istefası. Oyuncaq Sentrokaspi diktaturasının yaradılması. İngilislərin Bakıya dəvət edilməsi.

Qafqaz İslam Ordusunun "Bakı əməliyyatı". Bakının azad edilməsi. Azərbaycan və türk oğullarının qəhrəmanlığı.

Milli hökumətin Bakıya köçməsi və Azərbaycan Xalq Cümhuriyyətinin Bakı dövrü. Azərbaycan hökumətinin Bakıda asayişi təmin etmək üçün həyata keçirdiyi tədbirlər.

Osmanlı komandanlığının Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə münasibəti.

Mudros barışığı. General Tomsonun başçılığı ilə Bakıya ingilis qoşunlarının gəlməsi. İngilislərin azərbaycanın müstəqilliyi məsələsinə münasibəti. Hökumətin ölkənin suverenliyini qorumaq uğrunda mübarizəsi.

Müvəqqəti Milli Şuranın buraxılması və Parlamentin açılışı. Azərbaycan parlamentinin quruluşu, tərkibi.

Azərbaycan hökumətinin tədbirləri. daxili siyasət: Dövlət quruculuğu, iqtisadi və mədəni siyasət tədbirləri.

Azərbaycanın ərazi bütövlüyünə qarşı qəsdlərin aradan qaldırılması. Qarabağda erməni separatizminin qarşının alınması. Araz-Türk Respublikası və onun əhəmiyyəti.

Xarici siyasət: Türkiyə, İran, RSFSR, İngiltərə, İtaliya və başqa ölkələrlə münasibətlər.

Azərbaycan nümayəndələri Paris sülh konfransında. Azərbaycan diplomatiyasının beynəlxalq arenada ilk addımları. Azərbaycanın müstəqilliyinin de-fakto tanınması.

Beşinci hökumət kabinetinin istefası. Növbəti hökumət kabinetinin təşkili məsələsi. "Beşinci kolon"un pozucu fəaliyyəti.

Sovet Rusiyasının Azərbaycanın suveren hüquqlarına qəsd etməsi. Parlamentin son iclası: hakimiyyətin bolşeviklərə verilməsi.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun səbəbləri. Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan tarixində yeri və rolu.

## Mövzu 15.  Azərbaycan XX əsrin 20-90-cı illərində

*Vaxt – 6 saat*
*Mühazirə - 4 saat*
*Seminar – 2 saat*

### Mövzunun qısa məzmunu:

Azərbaycan Xalq Cümhuriyyətinin idarəçilik orqanlarının ləğvi. Azərbaycan Sovet Sosialist Respublikasının yaradılması.

Müvəqqəti Hərbi İnqilab Komitəsi. Azərbaycan SSR-in ilk dekretləri.

